# Sazla sözün vəhdətini yaşadan şair

## Sözü sözə calayan, keçmişdən bu günə ərməğan olan dastanlarımızı sazın tellərində yaşadan Zəlimxan Yaqub haqq dünyasına qovuşdu



**Adətən dünyasını dəyişənlər haqqında "adam var evdən gedər, adam var eldən" deyirlər. Zəlimxan Yaqub eldən gedən şair oldu . Azərbaycan xalqı həqiqi mənada Xalq şairi, haqq aşığı Zəlimxan Yaqubu yanvar ayının 9-da itirdi. Əcəl 1950-ci il yanvar ayının 21-də Gürcüstanın Borçalı mahalının Kəpənəkçi kəndində dünyaya göz açan Zəlimxan Yaquba ömrünün 66-cı ilini tamamlamağa aman vermədi. Xalq yaradıcılığına hələ gənc yaşlarından bələd olan, bağlanan Zəlimxan Yaqub söz sərrafı, ustad aşıq idi. Sazla sözün vəhdəti onu ustad kimi sevdirmişdi.**

Bir neçə il bundan əvvəl ondan müsahibə alanda böyüyə, ağsaqqala hörməti müqəddəs borc bildiyini, "Ömrüm boyu pərəstiş etdiyim insanlar müəllimlər, bir də kitabxanaçılar olub" söyləyən şair poeziya aləminin müqəddəsliyini də sözə verdiyi dəyər ilə bildirmişdi. Müəllimə peyğəmbərə bərabər varlıq kimi hörmət edən, kitabı Quran qədər müqəddəs tutan şair bu hissi belə izah edirdi: "Qələm mənim üçün Allahın danışan dilidir."

Ən çox sevdiyi aşıq sənətinin ustadlarından olan Aşıq Alı demişkən, "əllini aşırsa da", yüzə çatmaq qisməti taleyinə yazılmasa da, Tanrının bəxş etdiyi ömür payından "gen-bol" istifadə etdi. Sanki həyatdan tez köçəcəyini bildiyi üçün ikiqat zəhmətlə çalışdı.

Sözü sözə caladı, keçmişdən bu günə saldığı cığırları söz səltənətinin inciləri ilə bəzədi.

Həyatının 60-cı ilində onunla bağlı yazımda "Siz əsrin yarısını başa vurmaqla Tanrının qismətinizə yazdığı ömür balansınızdan, yüzdən (oxucular yüz yaş arzulayır - red.) bir onluq da qazanmısınız. Altmışın zirvəsindən ötənlərə nəzər salaraq "Hayıf sənə cavanlıq" söyləyən şairin "Qocalma, Zəlimxan, qocalma hələ" sözlərinə münasibəti necədir? sualıma şairin cavabı belə olmuşdu: "Ömrü verən, yaratdığına bəxt-tale yazan Tanrıdır. Elə mən də cavabımı həmkar sözünün qüdrətinə söykənərək bildirmək istəyirəm. Osman Sarıvəllinin "Hər kim yüz il yaşamasa günah onun özündədir" misrası hamı kimi mənim üçün də dəyərlidir. Mən də yaşamaq məsələsində "özümü günahkar" etmək istəmirəm. Belə bir şair sözü də var: "Ey ilham pərisi, varsansa əgər, bu axşam üstümə qanadını gər." Şairin ilham pərisi onun yanındadırsa, yazıb yaratmaq üçün əsas varsa şair yaşayır. Şükür olsun, ilham pərim məni heç vaxt tək qoymur. Yazıram, yaradıram, Azərbaycanın cahana sığmayan cah-cəlalından ilham alıram. Buna görə də hələ ki, "hayıf sənə cavanlıq" deməyə tələsmirəm. Ömrün hər ilinə Allah bir məna verib, naxış vurub. Bu gözəlliyi duyub, yaşamağa dəyər."

Düzdür Tanrının insanlara bəxş etdiyi bütün gözəllikləri duyub, qəlbindən, ruhundan gələn misralarında canlandırmaqla zəngin bir irs qoysa da, yaşamaqla bağlı vədinə "xilaf çıxdı" şair. Cavanlığın ahıl vaxtında ömür payının son akkordlarını səsləndirdi, son sözünü dedi.

"Yandırsın canımı çaldığın hava, Kərəmin ağzından çıxan ah kimi" misraları ilə elə-obaya sədaqətin fəlsəfəsinə, qüdrətinə inamını bildirən şair eyni əqidəsini sazda ifadə etdiyi "Yanıq Kərəmi", "Misri", "Dilqəmi", "Ruhani", "Sarıtel"ində də yaşatdı. Həmişə deyirdi ki, hansı aşıq havasına qulaq assanız orada mübarizlik, yenilməzlik, əbədiyyət duyğuları hiss edərsiniz. Saz, söz, musiqi, poeziya hər biri ayrı-ayrılıqda insana güc verən, müqəddəsləşdirən varlıqlardır. Onları birlikdə qavramaq insanı formalaşdırır, saflaşdırır, xeyirxahlığa çağırır.

Söz sərrafı olmaqla natiqlik məharəti də onu oxuculara sevdirirdi. El sevgisini qazanan şair təkcə öz qələmindən çıxan misraları deyil, ürəyinə yatan, ruhunu oxşayan bütün şeirlərini əzbərləyər, məqamı gələndə işlədərdi. Müqəddəs Məkkəni ziyarət etmiş bir Hacı kimi tez-tez Tanrıya üz tutaraq "el sevgisini qazanmağın özü Yaradan tərəfindən verilmiş bir nemətdir, Tanrının sovqatıdır" deyərdi el şairi. Allahın verdiyi neməti dəyərləndirmək isə insanın özünüdərkindən, istedadından, təbiətə vurğunluğundan, halalı haramdan ayırmağı bacarmaq qabiliyyətindən asılıdır. Zəlimxan yaradıcılığı ilə tanışlıqdan sonra bir həqiqətə inanırsan: Tanrı nəfsini, təmiz nəfəsini, dil halallığını qoruyanlardan heç nə əsirgəmir. Zəlimxan Yaquba bu baxımdan həm də haqq adamı demək olar.

Onun poeziyasında ana xətt kimi keçən mövzulardan biri də qürbət, vətən həsrətidir. Müalicə üçün tez-tez Almaniyada olduğu müddətdə Azərbaycan üçün darıxdığını, qürbətçiliyin necə böyük yanğı olduğunu "Gəlib elə bu yerlərdə qalardım?" şeirində yaşadır, mətbuata verdiyi müsahibələrində dilə gətirirdi.

"Azərbaycan mənim üçün yazdıqca tükənməyən bir mövzudur, hər damlası qiymətli olan ümman, müqəddəslər müqəddəsi, ilahi bir varlıqdır. 50 milyonluq Azərbaycan bütün kainatdır, həyat eşqidir, hikmətdir, sələflərimizin qoruyub bizlərə ərməğan etdiyi qiymətli mənəviyyatdır" deyərdi unudulmaz şair.

Qarabağ qubarı onun üçün Vətən sevgisinin ayrılmaz nisgili idi. Şəhidlərimizin nigaran ruhlarının təsəlli tapması, torpaqlarımızın işğaldan azad olunması, günahsız axıdılan qanlara bais olanların lənətlənməsi onun poeziyasının ağlayan göz yaşları idi.

Xalqı düşdüyü bəlalardan xilas edəcək ümid yeri adlandırdığı liderin şərəfinə yazdığı "Əbədiyyət dastanı, "Peyğəmbər" qədər möhtəşəmdir. Azərbaycan xalqına da yaşam ümidini verən lider tapıldı. O dahi şəxsiyyət, xilaskar, ümummilli lider Heydər Əliyev oldu. Ulu Öndər haqqında çox yazılıb, hələ neçə-neçə kitablar yazılacaq. "Əbədiyyət dastanı" isə Ulu Öndərə həsr edilən tarixi bir əsərdir. Azərbaycan xalqı var olduqca onun əməlləri işimizdə, hər birimizin həyatında yaşayacaq. Milyonlar kimi Zəlimxan Yaqub da torpaqlarımızın azad olunacağına inamını ifadə edirdi. "Azərbaycan böyük, şair xalqdır" sözlərini gəlişigözəl deyim hesab etmirdi. Mənsub olduğu xalqın ədət-ənənəsinin fəlsəfəsini sözlə təbliğ edirdi.

Zəlimxan Yaqub üçün sözün sərhədi yox idi, çünki əsl şairin söz sərhədi ola bilməz. Bu sərhəd başlananda şairin qələmi qırılır, yaradıcılıq yolu sona çatır, ilham pərisi sönür. Zəlimxan Yaqub sağlığında sözün sərhədini tanımasa da, tale ona ömür sərhədinin bitən məqamını tanıtdırdı.

Ulu ozan, qopuzu, sazlı-sözlü çələngi ilə hər vaxt, hər bir elin-obanın sevimlisi olan bütün fəsillərdə sözə, saza bahar təravəti verən Zəlimxan Yaqub yazı gözləməyərək elə doğulduğu qış fəslində poeziya aləmini bəzəyən, naxışlar vuran çox sevdiyi dünya ilə halallaşdı. Haqq dünyasına qovuşdu. Ruhun şad, yerin cənnətməkan olsun, şair!

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***